# 4. JURNALİST - TƏBİİ İSTEDADIN BƏHRƏSİ

***Əslində, Qulu kimi yaxın dostların və əqidə adamlarının heç bir tərifə ehtiyacı yoxdur, çünki yalan, bayağı, boğazdan yuxarı təriflərin hesabına nüfuz sahibi olmaqdan çox uzaqdırlar. Ona görə də mən belə dostlara hörmət və istəyimi təmiz əllərini sıxıb gözlərinin içinə dik baxmaqla bildirirəm. Və bir-birimizin gözünün içinə dik baxa bildikcə, bizə zaval yoxdur. Əks halda, içimizdəki kristalların düzülüşü dəyişə bilər...***

**Elçin ŞIXLI,**
**"Ayna", "Zerkalo" qəzetlərinin baş redaktoru**

Bu qabiliyyət imtahanı problemi kifayət qədər köhnədir. Yəni, yaş baxımından az qala qocalmış problemdir. Mahiyyətcə köhnəlib.

Qulu Məhərrəmli jurnalistika məsələləri ilə bağlı ən incə mətləblərə də yeri gəldikcə toxunur, fikir, mülahizə bildirir, eyni zamanda, hər hansı bir etiraz doğuran təkliflə hər kim çıxış edirsə, bunun da faydalı, yaxud zərərli tərəflərini araşdırmağa çalışır. Onsuz da jurnalistikanın problemləri çoxdur. Hələ vaxtı ilə məşhur rus jurnalisti Aleksandr Bovin deyirdi ki, jurnalisti, həqiqi jurnalisti heç bir universitet yetişdirə bilməz. Yəni, əsas universitet kimi o, həyatı nəzərdə tuturdu. Ümumiyyətlə, jurnalist olmaq üçün həqiqətənmi jurnalist diplomu mütləq vacibdir? Axı müxtəlif sahələrlə bağlı fəaliyyət göstərən çoxlu jurnalistlərimiz var ki, onlar jurnalistika fakültəsini bitirməyiblər.

Zənnimcə, bu məsələ kifayət qədər mübahisəlidir və bu yöndə də söhbəti uzatmaq istəməzdim. İndiki demokratik test üsulu kifayət qədər biliyə, hazırlığa əsaslanır. Ancaq bunun da bir tərəfi var ki, bəlkə hansısa bir gənc heç jurnalist olmaq istəmir, sadəcə topladığı bala əsasən həmin fakültəyə düşür. Onsuz da o qədər yaza bilməyən jurnalist diplomlu ali təhsillilər var ki, fəaliyyət sahəsi kimi isti yer axtarırlar.

Jurnalist olmaq təbii istedadla, eyni zamanda təbii istəklə bağlıdır. Lap kənd təsərrüfatı mütəxəssisik kimi də ali təhsil alıb güclü jurnalist olmaq mümkündür. Kosmos tədqiqatçısı da jurnalist fəaliyyəti göstərə bilər. Bunun üçün həyatı müşahidə etmək imkanın varsa, müşahidələrini yazıya gətirə bilirsənsə, demək, söz sənə könül verəcək. Sadəcə jurnalistikanın spesifik tərəflərini mənimsəmək lazımdır. Bunun üçün kurslar da bəs edərdi. İndi daha bütün bunların hamısı bir yana, bizim universitetlərimizdə jurnalistika fakültələri var, məzunlar burada sözlə işləmək, xəbəri əldə etmək və cəmiyyətə çatdırmaq yollarını öyrənirlər.

Hələ orta məktəbin aşağı siniflərində oxuyan şagirdlər məktəb xəbərlərindən başlayaraq müxbirlik peşəsinə meyillənirlər. Get-gedə yazı vərdişləri yaranır. Orta məktəbi qurtarana qədər az-çox tanınırlar. Mənim yaxşı yadıma gəlir, bu gün filologiya elmləri doktoru olan Müşfiq Çobanlı hələ üçüncü sinifdə oxuyarkən mətbuatda çıxış etməyə başlamışdı. Mənim özümün ilk yazım hələ dördüncü sinifdə oxuyanda çap olunmuşdu.

Professor Qulu Məhərrəmli maraqlı bir məsələ qoyur: məzun test imtahanından keçib, yüksək bal toplayıb. Onu qabiliyyət imtahanına çağırırlar. Təəssüf ki, inşa yaza bilmir və kəsilir.

"*Qabiliyyət imtahanının qabiliyyətsiz yönləri*" (04.08.2016) publisistik yazısı da Qulu Məhərrəmlinin fəaliyyət göstərdiyi sahənin gələcəyi ilə bağlı narhatlığının nəticəsi kimi ərsəyə gəlib. Mətnin əvvəlində narahatlığını elə ön plana çəkir: "*Bütün yaxşı ideyaların taleyi belədir: reallaşanda özünü məmnun sayırsan, gerçəkləşməyib kağız üzərində qalanda içdən göynəyib heyifsilənirsən, həmin ideya əcaib şəkildə həyata keçirildikdə isə dərin təəssüflə "olmasaydı, bundan yaxşı idi" deyirsən. İndi bəzi çevrələrdə narahatlıqla müzakirə olunan jurnalistika ixtisasına qəbul zamanı xüsusi qabiliyyət imtahanının tətbiq edilməsi ideyası məhz sonuncu kateqoriyadandır*". Hər halda qabiliyyət imtahanı hər hansı bir gəncin fikrini ifadə etmək imkanını üzə çıxarır. Çox ola bilər ki, hələlik yazılı şəkildə fikrini ifadə edə bilməsin, ancaq bu vərdişə oxuduğu dövrdə çox asanlıqla yiyələnə bilər. Ona görə də bu qabiliyyət imtahanı məsələsi birtərəfli hökmlə həll oluna bilmir. Hər halda gənclərin yazıya, cəmiyyətlə canlı ünsiyyətə meyilli olması, təbii istəklə düşüncələrini yazıya gətirməsi birinci əsasdır jurnalist olmağa. Qabiliyyət imtahanından keçən, ya keçməyən hər hansı bir gəncin necə jurnalist olacağını gələcək müəyyən edir. Professor ayrı-ayrı maddələrlə gənclərin jurnalistikaya istiqamətlənməsini şərtləndirən dəlillər gətirir və bu qeydlərin özü də əslində bir jurnalistika dərsidir. Zənnimcə, jurnalist olmaq istəyən hər gənc üçün Qulu Məhərrəmlinin bu qeydləri faydalı olardı.

Müəllif qeydlərinin sonuna yaxın başqa bir həmkarının söhbəti əsasında maraqlı bir müşahidəni yazıya gətirir: "*Mətbuat Şurasındakı dostlardan biri builki qabiliyyət imtahanında "Nə üçün jurnalist olmaq istəyirəm?"* mövzusunda inşa yazılarını yoxladıqdan sonra sosial şəbəkələrdə öz qənaətini paylaşıb. O, yazılarda jurnalistikaya üç fərqli baxışın özünü göstərdiyini qeyd edir: "*Biri yazır ki, ...ən böyük arzum televiziya jurnalisti olmaqdır. Hazırlayacağım ilk reportajın mövzusunu da düşünmüşəm: İşğaldan azad olunmuş torpaqlarımız...*". İkinci abituriyent mövzunu bu tezis üzərində qurub: "*İnternetin vüsət aldığı, sosial şəbəkələrdə qeyri-dəqiq informasiyaların yayıldığı bir dövrdə peşəkar jurnalist olub əhaliyə düzgün məlumat çatdırmaq istəyirəm*". Ən maraqlısını üçüncü abituriyent çox səmimi şəkildə ifadə edib: "*...Jurnalistlərə hər şey verirlər: pulsuz ev, xarici ölkələrə səfərlər... Mən də jurnalist olmaq istəyirəm*". Çox maraqlı, psixoloji təcrübədir. Doğrusu, bir qədər orta məktəb səviyyəsində olan gəncin təfəkküründən uzaq görünür. Ya əzbərçiliyin nəticəsidir, ya da hər hansı bir köməyin. Hər halda üçüncü cavab cəlbedicidir. Demək, gənclərin içərisində maddi tələbatı bütün mənəvi tələbatlardan üstün tutanlar da var. Zənnimcə, belələrinə xoşagəlməz münasibət düzgün deyil. Hər halda gənclər həyatımızın bütöv mənzərəsini bütün əlvanlığı ilə görməyə hazırlanmalıdırlar. Universitetlər də öz işlərini bu istiqamətdə qurmalıdır.

Professor maraqlı təcrübə-müşahidənin sonuna belə yekun vurur: "*Əslində, çox maraqlı cavablardır və bunlar bizim jurnalistikamızın sovet keçmişinin (pafos), yaxın dünənin (həqiqətə xidmət) və kədərli bu gününün (şəxsi bəhrələnmə) mənzərəsini çox gözəl cızır. Bu mənzərəni cızmaqdan ötrü heç bir "xüsusi qabiliyyət imtahanına" ehtiyac yoxdur məncə...*". Beləliklə, Qulu Məhərrəmli bir işə yaramayan, hələ bünövrədən məsələni düzgün həll etməyə mane olan qabiliyyət imtahanının əleyhinədir.

Onsuz da bütün ixtisas sahələri üzrə diplomlar son nəticədə çox şeyi həll etmir. Hər bir gənc mütəsəxxis ixtisası üzrə hazırlıqdan müvafiq işə qəbul komissiyalarına imtahan verməli olurlar. Belə çıxır ki, istər dövlət hesabına, istərsə də özəl sektorda oxuyan tələbələrin çoxu vəsaitləri havaya sovurublar. Bütün hallarda həyat hansısa yeni qaydaları tələb edir.

"*Teleməkanımızın parlaq rəngi - ANS*" (24.08.2016) yazısını bir növ ANS-in tarixi xidmətlərinə dəyər kimi qiymətləndirmək olar. Həqiqətən, bizim teleyaddaşımızda ANS-in xüsusi xatirə cizgiləri var. İstər həyatın sakit axarını, istərsə də, cəmiyyətin fırtınalı məqamlarını ANS ictimaiyyətə çox cəlbedici təqdim edə bilirdi. İndi ANS işləmir. Doğrudur, nisbətən "*Real*" televiziya ANS-in boşluqda qalan yerini doldurmağa çalışır. Bütün hallarda ANS çox istedadlı jurnalistika məktəbi kimi bizim TV tariximizdə mövcud olub, bunu danmaq olmaz.

Professor Qulu Məhərrəmli bir qədər də nostalji duyğularla ANS haqqında maraqla söhbət açır: "*Kim nə deyir-desin, ANS-in yayımı dayandırılandan sonra televiziya məkanımız çox solğun görünür. Adamlar hələ də ümidlə pultu ələ götürürlər ki, birdən telekanal açılmış olar. Xüsusən xəbər vaxtı gələndə şüuraltı "Xəbərçi" yada düşür. Elə bil ANS-siz xəbər ölçüləri də bir az dolaşıq düşüb. İnsanlar, sanki indi nəyin xəbər olub-olmamasını müəyyən etməyə çətinlik çəkirlər. Ötən illərdə auditoriyanın bəlli qismində belə bir qənaət formalaşıb: o şeyi ki ANS verir - xəbərdir, "Xəbərçi" hansısa hadisə barədə danışmırsa, deməli, əhəmiyyət verməyə dəyməz, o xəbər deyil. Əslində, burada təəccüblü bir şey də yoxdur; son 20-25 ildə Azərbaycan tamaşaçısının xəbər zövqünü, bu xəbərin ölçü-biçisini məhz ANS formalaşdırıb*". Ayrı-ayrı qəzetlər, xüsusi verilişlər və kanallar var ki, onlar fəaliyyətini dayandıranda sanki cəmiyyətdə bir boşluq yaranır, insanlar istinad mərkəzini itirirlər. Çünki hər bir adam televiziya ekranının qabağında əyləşərkən umduğu sözü, xəbəri eşitmək istəyir. Xəbərin ağ və ya qara rəngdə olmasından asılı olmayaraq. ANS həyatın özü ilə fərd arasında əlaqə yarada bilirdi. Qulu Məhərrəmli ona görə ANSin taleyindən belə narahatlıqla danışır ki, bu kanalın məktəb kimi formalaşması Azərbaycan cəmiyyətinin sözə demokratik münasibətinə dözümünün nəticəsi idi. İndi biz sözə demokratik münasibət məktəbi kimi formalaşmış bir kanalı itirmişik. Onun nə qədər güclü kadr potensialı vardı. Hər bir jurnalist özünün sahibləndiyi operativlik məktəbini özündən sonrakı neçə nəsil gənclərə öyrədə bilərdi.Əlbəttə, bu mənəvi zərbə kimi uzun illər yaddan çıxmayacaq. Buradakı siyasi dialoqlar, əks qütblərdə dayanan fikir adamlarının qarşılaşması cəmiyyətdəki durğun düşüncəni hərəkətə gətirmək gücündə idi.

Çoxları ANS-i xəbər televiziyası kimi yadda saxlayıb. Amma bu televiziyada publisistik polemikaların hər biri güclü fikir məhsulu kimi araya-ərsəyə gəlirdi,publisistik düşüncənin bütün üfüqlərini fikirləri dərinə çəkən suallarla sərhədləyə bilirdi. Professor sözünə davam edir: "*Təkcə xəbərçilikdə yox, bütövlükdə televiziya jurnalistikası, diskussiya mədəniyyəti, araşdırma, cəmiyyəti ifadə etmə və ekran publisistikasının inkişafında da bu telekanalın böyük rolu olub. Bir çox maraqlı layihələr də bu TV-nin ekranından pərvazlanıb. Uzun illər Azərbaycan cəmiyyəti ona öz kanalı kimi baxıb, dərdini ona deyib, çətinə düşəndə ona üz tutub. ANS-in reportyorları müstəqil Azərbaycanın gerçək tarixini, o cümlədən Qarabağ salnaməsini yazıb. Elə isə bu televiziya niyə susmalı, niyə yaşamamalıdır, yaşamaq üçün hamıdan çox haqqı ola-ola...*". Mən də professorun belə bir fikri ilə razıyam ki, bu kanalın yaratdığı məktəbin elementləri yaddaşlardan itməmiş yenidən efirə qayıtmalıdır. Əsas da ona görə ki, basmaqəlib düşüncədən, dayaz suallardan, qorxaq və cılız mənəvi mühitdən çıxmağa ANS-in yaratdığı düşüncə sistemi kömək edə bilərdi. Professor sözünü bir qədər kövrək notlarla bitirir: "*ANS-i tarix yaratmışdı, bu telekanal tarixi şəraitin məhsulu idi. O, köhnəliyin içindən - qaranlıqdan işığa tərəf can atan Azərbaycan cəmiyyətinin gedəcəyi yolu işıqlandıran bir qığılcım idi. Bu yol hələ bitməyib, bu yolun işığa, həmin qığılcıma ehtiyacı var*". Professor doğru deyir, bu yol hələ bitməyib. Sadəcə güclü bir əlin işığına ehtiyac var. Yolu süni qaranlıqdan çıxaran işığa.

Mənə elə gəlir ki, düşüncənin də rəngləri var. Və professorun qənaətlərindən improvizə ilə biz də razılaşdığımızı bildirə bilərik. ANS düşüncəmizin ən parlaq rənglərindən biri idi.

"*Həqiqəti yazmaq hissi...*" (05.09.2019) qeydlərinə müəllif belə bir aydınlaşdırıcı başlıq verir: "*Mühacir həyatı yaşamağa məcbur edilmiş Rauf Mirqədirovun jurnalist fəaliyyətinə retrospektiv baxış*". Hər halda bu yarımbaşlıq çox da uzaq olmayan tarixi yaddaşımıza gətirir. Tanınmış aəzrbaycanlı jurnalist "*Ayna*" və "*Zerkalo*" qəzetlərinin Türkiyə təmsilçisi Rauf Mirqədirovun həyatı ilə bağlı həyəcan qarışıq təəssüf doğuran xəbərlər yayıldı. Onu həbs etmişdilər.

Mən uzun illər sovet dövründə məhkəmə iclasçısı olmuşam. Hər dəfə məhkəmə iclasına gedəndə iclas salonunun qapısının üstündəki lövhədə belə bir hikmətli yazı oxuyurdum. "*Bütün insanlar mühakimə oluna bilər, amma bütün insanlar müqəssir deyil*". Nəsə Rauf Mirqədirov haqqında da Qulu Məhərrəmlinin qeydlərini oxuyanda bu kəlam yaddaşımda təzələndi. O başqa məsələdir ki, insan saxlanılıbsa, həbs edilibsə, mütləq onun təqsiri aydınlaşdırılmalıdır.

Əsl facië də budur. İnsan aylarla cəmiyyətdən təcrid olunur. Bəlkə də illərlə həbsxana barmaqlıqları arxasında qalır və sonra məlum olur ki, heç bir təqsiri yox imiş.

Qulu Məhərrəmlinin qeydlərindən aydın olur ki, o, Rauf Mirqədirovun həyatını kifayət qədər yaxşı bilir. Sadəcə o sözə baxmayan jurnalist olduğu üçün belə bir bəlaya düçar edilib.

Müəllif qeydlərində Rauf Mirqədirovun həyatının üç mərhələsini təqdim edir. Birinci mərhələdə o, bacarıqlı, qorxmaz, kifayət qədər yaradıcılıq potensialı olan jurnalist kimi görünür. O, əqidəsinə və peşəsinə sadiqlik göstərirk, mübarizdir, asanlıqla hər hansı bir qarşılaşmadan geri çəkilən deyil. İkinci mərhələdə o, həbsxana həyatının üzüntüləri içərisində görünür. Bu üzüntülər onu məhv edə bilmir. Hətta dörd divar arasında belə əzmi, iradəsi ilə onu cəmiyyətdən təcrid edən mühafizlərin dərin hörmət və rəğbətini qazanır.

Üçüncü mərhələdə Rauf Mirqədirov artıq azadlıqdadır. Və həm də məlum olur ki, ona qarşı irəli sürülən ittihamların heç də hamısı əsaslı deyil. Xüsusilə onu həbsə salmağa yönəlik olan ittihamlar. Və təəssüf ki, belə bir istedadlı jurnalist mühacirətə getməli olur, indi İsveçrədə yaşayır.

Üç gün bundan əvvəl fb səhifəsində ad günümlə bağlı çoxlu təbriklər gəldi, bu təbriklərdən biri də Rauf Mirqədirovun adından gəlmişdi. Doğrusu, çox təsirləndim. Bəlkə də həmin dərin təəssürat olmasaydı, bu yazını başqa cür, bəlkə bir az səhv yazardım.

Rauf Mirqədirov həqiqəti yazmaq üçün kifayət qədər gücü və özünüifadə imkanı olan jurnalistdir. Hər halda o, həqiqətin ölümə məhkum edilməzliyini sübut etdi.

Həyat bizdən daha güclü müəllimdir.

***05.10.2021***